# SƏNAYE PARKINDA
# İNVESTİSİYA PLANININ TƏHLİLİ ÜÇÜN TƏLƏB OLUNAN MƏLUMATLAR

## LAYİHƏNİN QISA XÜLASƏSİ

- Layihənin məqsədi, ümumi dəyəri, istehsal ediləcək məhsullar və s.

## LAYİHƏNİN TƏŞƏBBÜSKARI HAQDA MƏLUMAT

*Əgər potensial rezident hüquqi şəxsdirsə*

- Şirkətin adı və təşkilati-hüquqi forması (ASC, QSC, MMC və s.)
- Şirkətin təsis edilmə tarixi, VÖEN və hüquqi ünvanı
- Şirkətin fəaliyyət sahəsi və istehsal etdiyi məhsullar;
- Əsas səhmdarlar, təsisçilər barədə məlumat;
- Şirkətin direktoru və menecmenti barədə məlumat;

*Əgər potensial rezident fiziki şəxsdirsə*

- Fəaliyyət sahəsi;
- Şəxsiyyət vəsiqəsinin surəti (notariusda təsdiq edilmiş);
- VÖEN-i və hüquqi ünvanı;
- Geniş avtobioqrafiya və ya CV;

## LAYİHƏNİN TƏSVİRİ

- İstehsal edilməsi planlaşdırılan məhsul və xidmətlər, o cümlədən növləri;
- İstehsal gücü barədə məlumat;
- Məhsul(lar)ın nümunə üçün şəkilləri;
- Avadanlıqlar və onların alınacağı ölkələr və şirkətlər, istehsal - texnoloji prosesləri (sxemi təqdim edilməklə);
- Ekologiyaya birbaşa və ya dolayı təsiri və mənfi təsiri olduğu halda təsirlərinin qarşısı alınması üçün görüləcək tədbirlər;
- Məhsul(lar)ın keyfiyyət standartları (yerli və beynəlxalq) barədə məlumat.

## SƏNAYE PARKINDA REZİDENTLİK

- Tələb olunan ərazinin sahəsi;
- İnfrastruktur tələbatı üzrə (elektrik enerjisi, su və qaz) məlumat;

- Sənaye parkında hazır infrastrukturdan faydalanmaya görə qənaət;
- Sənaye parkının rezidenti olmaqla istifadə olunan imtiyazlardan - mənfəət, əmlak və torpaq vergilərindən 10 il müddətinə azad olunmaya – faydalanmaya görə qənaət;
- Avadanlıqların idxalına görə ƏDV 10 il və gömrük rüsumlarından 7 il müddətinə azad olunmaya görə edillən qənaət;

## BAZAR ARAŞDIRMASI

- İstehsal ediləcək məhsul(lar)a ölkə daxilində tələbat, analoji məhsul(lar) üzrə rəqib istehsalçılar (əgər varsa) barədə məlumat;
- Daxili bazarın və ixracın ümumi satışda faizi;
- Daxildə və ixrac bazarlarında potensial müştərilər (adları, əgər varsa razılaşmalar);
- Dünya bazarında vəziyyət (tələbat, istehsal və satış bazarları) barədə məlumat;

## TƏŞKİLATI PLAN

- Layihə üzrə tikinti işlərinin həyata keçirilməsinin başlama-bitmə tarixi və istehsal fəaliyyətinə başlama tarixi;
- Layihə çərçivəsində tikiləcək müəssisənin çertyoju, avadanlıqların yerləşmə sxemi və görünüş fotosu;
- Layihənin həyata keçirilməsi üzrə iş qrafiki (Qantt diaqramı).

## İNVESTİSİYA PLANI

- İnvestisiyanın həcmi və mənbəyi (xüsusi və/və ya borc kapitalı hesabına olması);
- İnvestisiya tam yaxud qismən kredit hesabına həyata keçirilirsə, kreditin mənbəyi və ödəniş qrafiki;
- Əsas və dövriyyə vəsaitləri üzrə investisiyanın həcmi;
- İstehsal olunacaq məhsul(lar)ın illik həcmi və məhsul vahidinin satış qiyməti barədə məlumat;

***Əsas vəsaitlər üzrə***

- Müəssisənin tikintisi və quraşdırma işləri, avadanlıqlar, qurğular, nəqliyyat vasitələri və digər əsas vəsaitlər üzrə - investisiya qoyuluşu barədə məlumat;
- Layihə çərçivəsində alınacaq avadanlıqlar barədə ətraflı məlumat (qiymətləri, avadanlıqların adları, istehsal ölkəsi və markası və mümkünsə şəkilləri);

***Dövriyyə kapitalı üzrə***

- Dövriyyə kapitalı xərclərinin strukturu;

- Məhsulun maya dəyərinin strukturu (əmək haqqı, xammal və s. üzrə);
- Xammal – xammalın təchizatçıları, məhsulun şərti ölçü vahidinə düşəcək xammal miqdarı, xammalın maya dəyərində çəkisi və s.

## MALİYYƏ PLANI

- Növbəti 5 - 10 ildə planlaşdırılan maliyyə fəaliyyəti göstəriciləri (Maliyyə Balansı, Gəlir-Xərc və Nağd pul axını proqnozları);
- Növbəti 5 - 10 ildə detallı gəlir-xərc proqnozu;
- Növbəti 5-10 ildə maliyyə balansı proqnozu (aktivlər və səhmdar kapitalında gözlənilən dəyişmə);
- Növbəti 5-10 ildə detallı nağd pul axını proqnozu;
- Layihəsi üzrə maliyyə təhlili göstəriciləri NPV (Xalis Cari Dəyər), IRR (Daxili Rentabellik Norması) və Payback (Özünü ödəmə müddəti), həmçinin illik satış, illik xərc verilməli (COGS), illik xalis mənfəət və gəlir marjası;
- Həssaslıq təhlili göstəriciləri (məs: xammalın qiymətinin dəyişməsinin NPV-yə təsir effekti);

### LAYİHƏ ÜZRƏ SWOT VƏ RİSK TƏHLİLİ

- SWOT təhlilinin;
- Risklərin təhlili və risklərin yumşaldılması üçün görüləcək tədbirlər;

### LAYİHƏNİN İQTİSADİ EFFEKTİ

- Layihə çərçivəsində son məhsul istehsalı (dəyər ifadəsində);
- Məşğulluğun artmasına töhfəsi (yeni iş yerləri);
- İdxalın əvəz edilməsi və ixracın artırılması perspektivləri barədə məlumat.

### LAYİHƏNİN İLƏ BAĞLI HÜQUQİ MƏSƏLƏLƏR

- Lisenziyalar, icazələr və s.